**“Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında” 2021-ci il mayın 20-də Moskva şəhərində imzalanmış Saziş təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Rusiya Federasiyası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 26 iyun 2021-ci il
1384

**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi arasında baytarlıq sahəsində əməkdaşlıq haqqında**

**SAZİŞ**

Bundan sonra “Tərəflər” adlandırılacaq Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Rusiya Federasiyasının Kənd Təsərrüfatı Nazirliyi, baytarlıq sahəsində Azərbaycan-Rusiya əlaqələrini inkişaf etdirmək və əməkdaşlığı dərinləşdirmək istəyini rəhbər tutaraq,

yoluxucu heyvan xəstəliklərinin daxil olmasının və yayılmasının qarşısının alınması məqsədilə baytarlıq sahəsində ikitərəfli əməkdaşlığın əhəmiyyətini qəbul edərək,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

Tərəflər heyvanların, baytarlıq preparatlarının, yem və yem əlavələrinin və bu Sazişin 3-cü maddəsində qeyd olunan digər malların bir Tərəfin dövlətinin ərazisi ilə digər Tərəfin dövlətinin ərazisinə ixracı, idxalı və/və ya tranziti zamanı heyvanların infeksion və parazitar xəstəliklərinin daxil olmasından və yayılmasından öz dövlətlərinin mühafizəsi məqsədilə birbaşa və ya Tərəflərin tabeliyindəki səlahiyyətli orqanlar vasitəsilə əməkdaşlıq edirlər.

**Maddə 2**

Tərəflərin bu Sazişin yerinə yetirilməsi üzrə səlahiyyətli orqanları aşağıdakılardır:

Azərbaycan Tərəfindən - Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi;

Rusiya Tərəfindən - Baytarlıq və Fitosanitar Nəzarəti üzrə Federal Xidmət.

**Maddə 3**

Bu Sazişin müddəaları aşağıdakılara münasibətdə tətbiq olunur:

a) bütün növ heyvanlara (kənd təsərrüfatı heyvanları, quşlar, xəz-dəri heyvanları, laboratoriya, heyvanat parkı və ev heyvanları, dəniz heyvanları, arılar, balıq və digər hidrobiontlar daxil olmaqla);

b) heyvan mənşəli məhsullar, insan qidası üçün nəzərdə tutulan məhsullar daxil olmaqla (ət və ət məhsulları, süd və süd məhsulları, yumurta və yumurta məhsulları, balıq və balıq məhsulları, arıçılıq məhsulları), heyvan mənşəli xammala (dəri, yun, xəz, tük, lələk, endokrin və bağırsaq xammalı, qan, sümük və digər növ xammal);

c) heyvanların genetik materiallarına (heyvan toxumu, yumurta hüceyrələri və ziqotaları, embrionları, həmçinin döllənmiş balıq kürüsü);

d) heyvan yeminə;

e) baytarlıq preparatları və yem əlavələrinə;

f) Tərəflərin dövlətlərinin qanunvericiliyinə uyğun olaraq baytarlıq nəzarətinə aid olan digər mallara.

**Maddə 4**

Tərəflər üçün əməkdaşlığın prioritet istiqamətləri aşağıdakılardır:

a) baytarlıq sahəsində Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (OİE) və digər beynəlxalq strukturlar çərçivəsində proqramların həyata keçirilməsi, o cümlədən Tərəfin dövlətinin ərazisində xəstəlik üzrə regionlaşma OİE kodekslərinin tövsiyələrinə uyğun olaraq həyata keçirilmişdirsə, regionlaşmanı Tərəflərin qarşılıqlı tanıması;

b) təhlükəli infeksion heyvan xəstəliklərinin profilaktikası və aradan qaldırılması məsələləri ilə bağlı iş təcrübəsi və məlumat mübadiləsi, o cümlədən Tərəflərin epizootik vəziyyət nəzərə alınmaqla qoyduğu məhdudiyyətlər barədə dərhal bir-birini məlumatlandırması;

c) idxal-ixrac əməliyyatları zamanı baytarlıq-sanitariya tələblərinin siyahısının və baytarlıq sertifikatları nümunələrinin mübadiləsi və onlara edilən dəyişikliklər barədə bir-birini dərhal məlumatlandırması;

d) Tərəflərin dövlətləri arasında daşınan və ya bir Tərəfin dövlətinin ərazisindən digər Tərəfin dövlətinin ərazisinə tranzit

olunan malların baytarlıq təhlükəsizliyi məsələləri ilə bağlı o cümlədən avtomatlaşdırılmış məlumat sistemləri vasitəsilə məlumat mübadiləsi.

**Maddə 5**

Bu Sazişin təfsiri və ya tətbiqi ilə bağlı bütün məsələlər Tərəflər arasında məsləhətləşmələr və danışıqlar yolu ilə həll olunacaq.

**Maddə 6**

Bu Sazişə Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz hissəsi olan və ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

**Maddə 7**

Bu Sazişin müddəaları Tərəflərin dövlətlərinin iştirakçısı olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərinə təsir etmir.

**Maddə 8**

Bu Saziş Tərəflərin onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı gündən qüvvəyə minir.

Bu Saziş 5 (beş) il müddətinə bağlanır. Tərəflərdən biri bu müddətin bitməsinə ən azı 6 (altı) ay qalmış bu Sazişi ləğv etmək niyyəti barədə digər Tərəfi yazılı şəkildə məlumatlandırmadığı təqdirdə, Sazişin qüvvəsi avtomatik olaraq növbəti beşillik müddətlərə uzadılır.

Moskva şəhərində 2021-ci il 20 may tarixində, hər biri Azərbaycan və rus dillərində olmaqla, iki nüsxədə imzalanmışdır və hər iki mətn bərabər qüvvəyə malikdir.

| Azərbaycan Respublikasının<br>Qida Təhlükəsizliyi Agentliyi<br>adından | Rusiya Federasiyasının<br>Kənd Təsərrüfatı Nazirliyi<br>adından |
|---|---|
| *(imza)* | *(imza)* |